**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XIX ƏSRİN SONU – XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCANDA AİLƏ TƏRBİYƏSİNİN NƏZƏRİ VƏ TƏCRÜBİ MƏSƏLƏLƏRİ

İxtisas: 5804.01 – Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi

Elm sahəsi: Pedaqogika

İddiaçı: **Səbinə Namiq qızı Cəfərova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Bakı Slavyan Universitetinin Pedaqogika və psixologiya kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | pedaqoji elmlər doktoru, professor<br>**Ellada Musa qızı Quliyeva** |
| Rəsmi opponentlər: | pedaqoji elmlər doktoru, professor<br>**Fərahim Balakişi oğlu Sadıqov** |
| | pedaqogika elmləri doktoru, professor<br>**Hümeyir Hüseyn oğlu Əhmədov** |
| | pedaqogika üzrə fəlsəfə doktoru<br>**Ramiz Cəlal oğlu Əliyev** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdindəki FD 2.15 Dissertasiya Şurası

| | |
|---|---|
| Dissertasiya Şurasının sədri:<br>__________ | tarix elmləri doktoru, professor<br>**Cəfər Məmməd oğlu Cəfərov** |
| Dissertasiya Şurasının elmi katibi:<br>__________ | pedaqogika üzrə fəlsəfə doktoru, dosent<br>**Mələk Əlislam qızı Zamanova** |
| Elmi seminarın sədri:<br>__________ | pedaqoji elmlar doktoru, professor, Əməkdar elm xadimi<br>**Fərrux Abbas oğlu Rüstəmov** |

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Xalqın genetik yaddaşının nəsildən-nəsilə ötürülməsi, milli-mənəvi dəyərlər, mədəni irsin formalaşması ilk növbədə ailədən başlayır. Millət, xalq haqqında ilkin təsəvvürləri ailələr yaradır və bu təsəvvürlər milli-mənəvi dəyərlərin təcəssümü kimi mühüm əhəmiyyət kəsb edir. Bu gün gənc nəslin təlim-tərbiyəsində və hərtərəfli yetişdirilməsində cəmiyyətin ilkin özəyini təşkil edən ailələrin üzərinə mühüm vəzifələr düşür. Ailələrin başlıca vəzifəsi milli ruhda, vətənpərvər, əxlaqlı, əqli cəhətdən inkişaf etmiş, geniş dünyagörüşə malik, estetik zövqlü, fiziki cəhətdən sağlam uşaq tərbiyə etməkdir.

Valideynlərin bu vəzifəsi hüquqi-normativ sənədlərdə də təsbit olunur. "Azərbaycan Respublikasının Ailə Məcəlləsi"nin 58-ci maddəsi uşaqların ailədə tərbiyəsi və valideynlərin hüquq və vəzifələrinə həsr edilmişdir. Məcəllənin 58-ci maddəsinin birinci bəndində göstərilir ki, valideynlərin *"uşaqlarını tərbiyə etməyə borclu"* olması, ikinci bəndində "*uşaqlarının sağlamlığına, tərbiyəsinə, psixi, mənəvi, fiziki inkişafına görə* məsuliyyət daşıması, dördüncü bənddə isə uşaqların "*ümumi təhsil almasını təmin etməsi*" vacib hesab edilir[1].

Sağlam cəmiyyətin başlıca bünövrəsi sağlam ailələrin mövcudluğu ilə şərtlənir. Məhz bu səbəbdən deyə bilərik ki, ictimai-psixoloji baxımdan dövlətin, xalqın özəyini sağlam ailə təşkil edir.

Uşaq şəxsiyyətinin formalaşdırılmasında ailənin və valideynlərin rolu əvəzsizdir. Valideynin mütəmadi, fasiləsiz və məqsədyönlü rəhbərliyilə uşaqlar həyati təcrübə qazanır, cəmiyyətə inteqrasiya edir, şəxsiyyət kimi yetişirlər. Ailənin bu mövqeyi uşaqların gələcək taleyinə birbaşa təsir göstərir, onların həyatda tutacağı statusu müəyyənləşdirir.

Nümunəvi ailə dedikdə Azərbaycanın ləyaqətli oğlu, dahi siyasətçi və əvəzsiz insan olan Ümummilli Liderimiz Heydər Əliyevin ailəsini xatırlamamaq mümkün deyil. Dahi Liderimiz ailə dəyərləri haqqında qeyd edirdi: "*Ailə dəyərləri, ailə ənənələri, milli-mənəvi*

---

1

Azərbaycan Respublikasının Ailə Məcəlləsi. Bakı: Qanun, 2011. 208 s.

*dəyərlərimizə sədaqət, uşaqların müasir səviyyədə tərbiyəsi mühüm əhəmiyyət kəsb edir*"[2]. Ulu öndər ailəni millətin, xalqın mənəvi sərvəti hesab edərək, adət-ənənələrin, mədəniyyətin, dilin, dinin ümumi təcəssümü, ailədaxili münasibətləri cəmiyyətin güzgüsü hesab etmişdir. Ümummilli lider hesab edirdi ki, necə insanlar cəmiyyətdə qarşılıqlı münasibətləri dostluq, düzgünlük, dürüstlük prinsipləri əsasında həyata keçirirsə, ailədaxili münasibətlər də bu prinsip və qaydalar əsasında həyata keçirilməlidir.

Azərbaycan Respublikasının sosial sahə üzrə dövlət siyasətinin ən vacib istiqamətlərindən birini sağlam ailə münasibətləri təşkil edir. Ulu öndər Heydər Əliyevin respubikaya rəhbərlik etdiyi dövrdə ailə və ailə siyasəti kimi prioritet məsələlər hər zaman diqqət mərkəzində olmuşdur. 1995-ci il 12 noyabr tarixində qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının II fəslinin 17-ci maddəsində göstərilir ki: "*Ailə cəmiyyətin əsas özəyi olaraq dövlətin xüsusi himayəsindədir və hər bir valideynin əsas məqsədi, borcu övladlarının qayğısına qalmaq, onları tərbiyə etməkdir. Dövlət isə bu borcun yerinə yetirilməsinə nəzarət edir*"[3].

Valideynlərin vəzifəsi hüquqi-normativ sənədlərdə də təsbit olunur. 1999-cu ildə qəbul edilmiş Azərbaycan Respublikasının "Ailə məcəlləsi"ndə ailə münasibətlərinin tənzimlənməsi məsələlərini əks etdirən hüquqi sənəd olaraq, ailədə valideyn, ər-arvad, ailə üzvlərinin qarşılıqlı münasibəti, uşaqların hüquq və vəzifələri kimi məsələlər öz əksini tapmışdır. Ölkəmizdə müxtəlif qurumlar (dövlət və qeyri-hökumət) ailələrdə ana və uşaq sağlamlıqlarının qorunması və möhkəmləndirilməsi istiqamətində mühüm işlər aparılır. Azərbaycan Respublikası uşaq hüquqlarının qorunması ilə bağlı müxəlif konvensiyalara ("Uşaqların cinsi istismardan və cinsi zorakılıqdan müdafiəsi haqqında" (2007) Avropa Şurası Konvensiyasına) qoşulmuş, "Uşaq Hüquqları Bəyannaməsi" (1959), "Uşaq Hüquqlarına dair Konvensiya"ya (1989) əsaslanaraq uşaq hüquqları ilə bağlı yaranan münasi-

---

[2] Hüseynova, H. Heydər Əliyev və ailə institutnun inkişafı, Bakı: Azərbaycan qəzeti 9 may, 2014, - s.9

[3] Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Azərbaycan. – 1997. – s.14.

bətləri tənzimləmək və uşaqların hüquqlarının müdafiəsini təmin etmək məqsədilə “Uşaq hüquqları” haqqında Qanun (1998) qəbul edilmişdir. Bundan başqa uşaqların əqli və psixoloji inkişafına mənfi təsir göstərəcək, onların yaş səviyyələrinə uyğun olmayan informasiyalardan qorunmasını nəzərdə tutan “Uşaqların zərərli informasiyadan qorunması haqqında” (2018) Azərbaycan Respublikasının Qanunu və digər qanunvericilik aktları da qəbul edilmişdir.

Ümummilli liderimiz H.Əliyevin adət-ənənələrinə sadiq qalan, onun siyasətini uğurla davam etdirən, ideyalarını yaşadan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan xalqının, ailələrinin, uşaqlarının xoşbəxt gələcəyi və rifahı üçün bütün imkanlarını səfərbər edərək və yetişməkdə olan gələcək nəsilə böyük ümid bəslədiyini bildirərək böyüyən nəslin vətənpərvər, sağlam, milli ruha sadiq və savadlı olmasını dövətin və cəmiyyətin inkişafının təməl prinsipi kimi dəyərləndirmişdir. İlham Əliyev həqiqətən də uşaqların sosial rifahının yaxşılaşdırılması, onların hüquqlarının qorunması, gələcəyinin hərtərəfli təmin edilməsinin qayğısına qalaraq bir sıra mühüm addımlar atmışdır. Bu istiqamətdə görülən işlər sırasına “*Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (de-institusionalizasiya) və alternativ qayğı Dövlət Proqramının (2006-2015-ci illər)”* (2006) qəbul edilməsi, 2009-cü ilin “Uşaq ili” elan edilməsini göstərmək olar.

Mövcud ictimai quruluşun əsas bünövrəsi hesab edilən ailə özünün ictimai-mənəvi və hüquqi əsasları ilə möhkəm təməl üzərində qurulmalıdır. Bu səbəbdən ailələrdə sağlam psixoloji iqlimin bərqərar olunması, uşaqların tərbiyəsi, zərərli meyillərdən uzaq olması müasir ailənin aktual problemlərindən biri hesab edilir.

Dövrün əsas tələblərindən biri valideyn-övlad arasında münasibətlərin daxili azadlıq, nəcib hisslər üzərində qurulmasıdır. XX əsrin sonlarından etibarən ailədaxili əlaqələr daha diplomatik və humanist davranışlarla əvəzləndi. Azərbaycanda müasir dövrdə ailə sütunlarının bünövrəsində ən prioritet məsələ böyüyə hörmət, ailədaxili sevgi və dəyərlərə dayanır. Uşaqların qəlbində hələ erkən yaşlarından nəcib hisslərin, duyğuların formalaşması, valideynə, dostlarına, yoldaşlarına sevginin aşılanması məhz ailədə formalaşır. Müasir ailənin

də qarşısında duran ən vacib məsələlərdən biri onlarda bu qəbildən olan nəcib keyfiyyətləri formalaşdırmaqdır.

Ailə, ailə tərbiyəsi, ailənin tərbiyəvi imkanları, şəxsiyyətin formalaşdırılmasında ailənin rolu və s. kimi problemlər bir çox elmlərin (pedaqogika, psixologiya, sosiologiya və s.) çərçivəsində tədqiq olunsa da, ailə tərbiyəsinin nəzəri və təcrübi məsələləri tarixi-pedaqoji aspektdən bu günə kimi araşdırılmamış, tədqiqat predmetinə çevrilməmişdir. Ailə tərbiyəsinin tarixi aspektdə araşdırılması iki aspektdən önəmlidir. Alınan elmi nəticələr həm təhsil və pedaqoji fikir tariximizi, həm də müasir ailə tərbiyəsinin məzmununu zənginləşdirə bilər.

Azərbaycanda ailə tərbiyəsi problemlərinə dair xeyli araşdırmalar aparılmış, fəlsəfə və elmlər doktorluğu dissertasiyaları müdafiə edilmişdir. Ailənin etnoqrafik cəhətdən təsvirini verən əsərlər də vardır. Lakin XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycanda ailə tərbiyəsinin nəzəri-tarixi məsələləri ciddi şəkildə araşdırılmamış, elmi araşdırmaların predmetinə çevrilməmşdir. Halbuki XIX əsrin ikinci yarısından başlayaraq Azərbaycan maarifçilərinin uğrunda mübarizə apardığı ən vacib məsələlərdən biri qızların təhsili-tərbiyəsi və ailə tərbiyəsi məsələləri olmuşdur. Həmin maarifçilərin ailə tərbiyəsi ilə bağlı irəli sürdüyü nəzəri fikirləri ümumiləşdirmək, xeyriyyə və ictimai-pedaqoji təşkilatların ailə tərbiyəsinin inkişafına təsirini araşdırmaq, müasir ailə tərbiyəsində onlardan istifadə etməyin mümkünlüyünü əsaslandırmaq vacib problemlərdən biridir.

Respublikamızda ailə tərbiyəsinin nəzəri problemləri ilə bağlı bir sıra tədqiqat işləri aparılmışdır. Ə.Ə.Əlizadə və A.N.Abbasovun müəllifliyi ilə ilk "Ailə" dərsliyi ərsəyə gəlmişdir. A.N.Abbasovun "Məktəbliləri ailə həyatına hazırlamağın nəzəriyyə və təcrübəsi" adlı doktorluq dissertasiyası, R.H.Məmmədovanın "Molla Nəsrəddin" jurnalında təhsil və tərbiyə məsələləri", Q.Ə.Qeybullayevin "Azərbaycanlılarda ailə və nikah (XIX əsr və XX əsrin əvvəlləri)", A.N.Qasımovanın "XX əsrin əvvəllərində Azərbaycan mətbuatında qadın problemləri (1901-1917)", H.V.İlyasovun, M.F.Məmmədovanın, M.R.Nuriyevanın, N.R.Yusifovanın, S.B.Hacıyevanın, A.Q.Kamalovanın fəlsəfə doktorluğu dissertasiyalarında ailə tərbiyəsinin nə-

zəri məsələlərinə toxunulmuşdur.

Müəllim hazırlığını həyata keçirən ali təhsil müəssisələrində bəzi ixtisaslarda "Ailə pedaqogikası" fənni tədris edildiyindən son illərdə bununla bağlı bir neçə dərslik və dərs vəsaiti nəşr olunmuşdur. A.N.Abbasovun "Ailə pedaqogikası", R.L.Hüseynzadə, L.Z.Allahverdiyevanın "Ailə pedaqogikası", N.Z.Çələbiyevin "Ailə psixologiyası", S.M.Quliyevin "Ailə pedaqogikasının mühüm problemləri", E.M.Quliyeva, Z.S.Məcidova, Z.M.Mehrəliyeva və Ü.B.Mehrəli-yevanın "Ailə pedaqogikası" adlı dərslik və dərs vəsaitləri bu cəhətdən maraq doğurur. X.Q.Fətəliyevin "Ailədə milli tərbiyə"və N.Ə.Xəlilovun "Ailə tərbiyəsinin bəzi məsələləri" kitablarında ailə tərbiyəsinin nəzəri məsələləri öyrənilmiş, ailədə uşaqların tərbiyəsinin təşkili xüsusiyyətləri izah olunmuşdur. Bu əsərlərdə ailənin mahiyyəti, funksiyaları, ailədə valideyn-münasibətləri, ailə dəyərləri və s. öz əksini tapmışdır.

Ailə tərbiyəsinin nəzəri və praktik məsələləri ilə bağlı xarici ölkə tədqiqatçılarının da dəyərli araşdırmaları vardır. Əslində XX əsrdə Azərbaycanda ailə tərbiyəsi ilə bağlı nəzəri-metodoloji fikirlərin formalaşdırılmasında xarici ölkə alimlərinin, xüsusilə də rus tədqiqatçılarının mühüm təsiri olmuşdur. Bu baxımdan İ.L.Lesqaftın, P.F.Kapterevin, P.P.Blonskinin, A.Y.Qrankinin, N.D.Pçelinsevanın, V.M.Bexterevin, K.N.Vorobyovanın, L.A.Qrisayın, Y.P.Azarovun, T.A.Kulikovanın, V.S.Troxtiyin, S.A.Minyukovanın ailə tərbiyəsi ilə bağlı əsərləri xüsusi əhəmiyyət kəsb edir. Rusiyada ailə tərbiyəsi nəzəriyyəsinin formalaşdırılması onların adı ilə bağlıdır.

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda ailə tərbiyəsinə tərbiyə nəzəriyyəsinin ümumi inkişafı kontekstində baxılırdı. Belə bir vəziyyətdə XIX əsrdə və XX əsrin əvvəllərində Azərbaycanda baş verən müxtəlif ictimai-siyasi hadisələr Azərbaycan ailəsinin sosiomədəni həyatına güclü təsir etmiş, ailə-məişət məsələlərində dərin iz buraxmışdır. Həmin dövrdə məktəb, maarif, elm və mədəniyyəti inkişaf etdirmək və savadsızlığı aradan qaldırmaq üçün qadın təhsili ictimai-siyasi hadisələrin mərkəzində dayanırdı.

Belə ki, XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanın görkəmli pedaqoq və maarifçilərinin əsas məqsədi xalqı maarif-

ləndirməklə, uşaqları məktəblərə cəlb etməklə, qadın təhsilinə nail olmaqla Azərbaycan ailələrinin hərtərəfli inkişafına yardım etmək idi. Həmin dövrdə elə bir maarifçi, pedaqoq, məktəbdar yoxdur ki, öz əsərlərində azərbaycanlıların ailə-məişət problemlərinə, qadınların savadsızlığına və hüquqsuzluğuna toxunmasın. M.Ə.Rəsulzadənin, H.Zərdabinin, R.Əfəndiyevin, M.Şahtaxtlının, M.Sidqinin, F.Köçərlinin, C.Məmmədquluzadənin, N.Nərimanovun, M.Ə.Sabirin və digərlərinin əsərləri bu baxımdan xarakterikdir. O dövrün nəzəri-pedaqoji irsinin əsas istiqamətlərindən birini Azərbaycan ailələrinin normal münasibətlər üzərində qurulması, millətin mənəvi diriliyi, xürafata qarşı mübarizə dayanırdı. Bu ideya həmin dövrdə maarifçilərimizin ən çox diqqət yetirdikləri məsələlərdən biri olduğundan bu və ya digər şəkildə tədqiqatçıların (M.M.Mehdizadə, Ə.Y.Seyidov, H.M.Əhmədov, Ə.Ə. Ağayev, S.Ə.Əliyeva, F.A.Rüstəmov, E.M.Quliyeva, İ.N.İsayev, Z.M.Mehrəliyeva, F.Ə.Seyidov, S.A.Orucova, T.Ə.Vahabova, V.P.Bəşirov, K.H.Camalov, B.M.Nəsirov, S.S, Bayramova, L.N.Nağıyeva, G.N.Məmmədova, K.Ə.Həsənova və b.) diqqətində olmuşdur.

XIX əsrin sonu XX əsrin əvvəllərində maarifçilərimizin ailə tərbiyəsi ilə bağlı yaratdığı zəngin pedaqoji irsin öyrənilib üzə çıxarılması, hazırkı və gələcək nəsillərə çatdırılması, xələflərimizin mütərəqqi və humanist ideyalarının yaşadılması müasir tədqiqatçıların vətəndaşlıq borcudur.

Lakin tədqiq olunan dövrlə müqayisədə müasir dövrdə köhnə streotiplər çoxdan dağıdılmış və aradan qaldırılmışdır. Müasir dövrdə ailələrdə sağlam mühitinin yaradılması uşaqların hərtərəfli inkişafına, gələcək fəaliyyətinə, şəxsiyyət kimi formalaşmasına birbaşa təsir göstərir. Bununla yanaşı, ailə tərbiyəsinin, ailə ənənələrinin tarixi aspektdə öyrənilməsi və təbliğ olunması həmişə öz aktuallığını saxlayır. Müasir dövrdə ailə tərbiyəsi ilə bağlı cəmiyyətdə baş verənləri asan dərk edilməsi ailə tərbiyəsi ilə bağlı tarxi-pedaqoji irsin öyrənilməsindən çox asılıdır. Biz bu zəngin irsi, mənəvi sərvəti öyrənməklə ailədə uşaqların tərbiyəsinin inkişaf istiqamətlərini və perspektivləri müəyyənləşdirə bilərik.

**Tədqiqat obyektini** XIX əsrin sonu XX əsrin əvvəllərində

Azərbaycanda tərbiyə nəzəriyyəsinin nəzəri və təcrübi məsələləri təşkil edir.

**Tədqiqatın predmetini** XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda ailə tərbiyəsinin nəzəri və təcrübi məsələləri təşkil edir.

**Tədqiqatın məqsədi** XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan maarifçilərinin ailə tərbiyəsi ilə bağlı nəzəri fikirlərini sistemləşdirməkdən, mütərəqqi təcrübəni ümumiləşdirməkdən, ailə tərbiyəsinin demokratikləşdirilməsinə təsir göstərən amilləri üzə çıxarmaqdan, görkəmli maarifçilərimizin ailə tərbiyəsindəki şəxsi nümunəsini elmi dövriyyəyə daxil etməkdən və müasir təcrübədə istifadəsinin imkan və yollarını müəyyənləşdirməkdən ibarətdir.

**Tədqiqatın vəzifələri.** Tədqiqatın məqsədindən irəli gələn vəzifələr aşağıdakılardan ibarətdir:

- XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda ictimai-siyasi və mədəni dəyişikliklərin ailə tərbiyəsinə təsirini araşdırmaq;
- XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda ailə və ictimai tərbiyənin əsas xüsusiyyətlərini aydınlaşdırmaq;
- ictimai-pedaqoji və xeyriyyə cəmiyyətlərinin ailə tərbiyəsinin inkişafındakı rolunu müəyyənləşdirmək;
- problemlə bağlı tarixi-pedaqoji irsi və müasir dövrdə aparılan tədqiqatları öyrənmək;
- Azərbaycan maarifçilərinin ailə tərbiyəsinin məzmunu, təşkili xüsusiyyətləri və metodları ilə bağlı nəzəri ideyalarını təhlil etmək;
- XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan ailələrində uşaqların tərbiyəsi ilə bağlı mütərəqqi təcrübəni ümumiləşdirmək, görkəmli maarifçilərimizin ailə tərbiyəsindəki şəxsi nümunəsini elmi dövriyyəyə daxil etmək;
- XIX əsrin sonu XX əsrin əvvəllərində maarifçi-pedaqoqların formalaşdırdığı ailə mühiti və onların ailə tərbiyəsi ilə bağlı fəaliyyətinin əsas istiqamətlərini müəyyən etmək.

**Tədqiqatın metodları:** tarixi-müqayisəli metod, analiz və sintez, induksiya və deduksiya metodları, nəzəri təhlil, ümumiləşdirmə, arxiv sənədlərinin və mətbuatın öyrənilməsi və s.

**Tədqiqatın elmi yeniliyi** onunla şərtlənir ki, dissertasiyada XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan maarifçilərinin ailə tərbiyəsi ilə bağlı nəzəri fikirlərinin sistemləşdirilmiş, ailə tərbiyəsi ilə bağlı mütərəqqi təcrübənin ümumiləşdirilmiş, ailə tərbiyəsinin demokratikləşdirilməsinə təsir göstərən amillər üzə çıxarılmış və müasir təcrübədə ondan istifadənin imkan və yolları müəy-yənləşdirilmişdir

**Tədqiqatın nəzəri əhəmiyyəti** onunla şərtlənir ki, XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda pedaqoji hərəkatın əsas istiqamətlərinin öyrənilməsi, maarifçilərinin ailə tərbiyəsi ilə bağlı nəzəri fikirlərinin sistemləşdirməsi, uşaqların tərbiyəsi ilə bağlı mütərəqqi təcrübənin və ailə ənənələrinin ümumiləşdirilməsi, görkəmli maarifçilərimizin ailə tərbiyəsindəki şəxsi nümunəsinin elmi dövriyyəyə daxil edilməsi, ailə tərbiyəsinin demokratikləşdirilməsinə təsir göstərən amillərin üzə çıxarılması pedaqoji fikir tarixini və tərbiyə nəzəriyyəsini yeni müddəalarla zənginləşdirəcəkdir.

**Tədqiqatın praktik əhəmiyyəti.** Tədqiqatın materiallarından ali məktəblərdə "Pedaqogika", "Pedaqogika tarixi", "Azərbaycan təhsil və pedaqoji fikir tarixi" kurslarının tədrisində, "Azərbaycan təhsil və pedaqoji fikir tarixi" oçerklərinin, "Azərbaycan pedaqoji antologiyası"nın tərtibində, "Səriştəli valideyn hazırlığı" kurslarında, bakalavriatura və magistratura səviyyələrində mühazirə və seminar məşğələlərinin təşkilində istifadə oluna bilər.

**Müdafiəyə çıxarılan müddəalar:**

1. XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda ailə tərbiyəsinin demokratikləşdirilməsi ictimai-siyasi, elmi-mədəni mühitlə bağlı olmuşdur.

2. Azərbaycan maarifçilərinin ailə tərbiyəsi ilə bağlı fikirləri ailədə uşaqların tərbiyəsinin yeni məzmunda təşkilində mühüm rol oynamışdır.

3. Dünyəvi məktəblərin, pedaqoji mətbuatın, teatrın, bədii ədəbiyyatın, pedaqoji və xeyriyyə cəmiyyətlərin, yeni məzmunlu kitabların meydana gəlməsi ailə tərbiyəsinin humanist və demokratik istiqamətdə inkişafına kömək etmişdir.

4. Azərbaycanda ailə tərbiyəsinin yeni istiqamətdə inkişafında

maarifçilərin yeni tipli şəxsiyyətin məktəbdə və ailədə formalaşdırılmasının məzmunu, metodları, təşkili xüsusiyyətləri ilə bağlı ideyaları əhəmiyyətli rol oynamışdır.

5. Maarifçilərin və maarifpərvərlərin ailədə uşaqların əxlaqi, əqli, mənəvi, fiziki, dini, əmək, estetik və humanizm tərbiyəsinin məzmunu və təşkili xüsusiyyətləri ilə bağlı irəli sürdüyü fikirlər sonrakı dövrlərdə ailə tərbiyəsi ilə bağlı daha mükəmməl nəzəriyyələrin yaranmasını şərtləndirmişdir.

6. XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan ailələrində uşaqların tərbiyəsi ilə bağlı mütərəqqi təcrübənin formalaşdırılması görkəmli maarifçilərimizin ailə tərbiyəsindəki şəxsi nümunəsi və təşəbbüsü ilə bağlı olmuşdur.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqatın başlıca müddəaları, əsas məzmunu və nəticələri Azərbaycan Respublikasının Prezidenti yanında AAK-ın etdiyi jurnallarında, elmi məcmuələrdə, nüfuzlu elmi jurnallarda çap olunmuş, beynəlxalq və respublika elmi konfranslarının materiallarında elmi dövriyyəyə tətbiq edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı:** Dissertasiya işi Bakı Slavyan Universitetinin Pedaqogika və psixologiya kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Giriş – 9 səhifə (17039 işarə), I fəsil - 73 səhifə (141468 işarə), II fəsil – 66 səhifə (126960 işarə), nəticə 4 səhifə (7347 işarə) istifadə olunmuş ədəbiyyat siyahısı 20 səhifədən ibarət olmaqla dissertasiyanın ümumi həcmi 168 səhifə, 292814 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın giriş hissəsində tədqiqatın mövzusunun aktuallığı əsaslandırılmış, işin predmeti, obyekti, məqsədi və vəzifələri, elmi yeniliyi, nəzəri-praktik əhəmiyyəti, aprobasiyası kimi məsələlər öz əksini tapmışdır.

Dissertasiyanın **"XIX əsrin sonu-XX əsrin əvvəllərində Azər-**

**baycan pedaqoji fikir tarixində ailə tərbiyəsi probleminin qoyuluşu"** adlanan I fəsli dörd paraqrafdan ibarətdir. "**XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycanda sosiomədəni şərait və onun ailə tərbiyəsinə təsiri**" adlı birinci paraqrafda qeyd olunur ki, XIX əsr Azərbaycan xalqının taleyində tarixi dönüş nöqtəsi olmuşdur. Şimali Azərbaycanın Çar Rusiyasının tərkibinə daxil edilməsi mədəni-maarif və iqtisadi cəhətdən müsbət dəyişikliklərə şərait yaratmışdır. Bundan əlavə Rusiyada məhkəmə, şəhər və inzibati idarələrdə inkişaf baş vermiş, kəndli islahatları həyata keçirilməyə başlamışdır. Bu kimi islahatların həyata keçirilməsi Azərbaycana da təsirsiz ötüşməmişdir. Tədqiq edilən dövr Azərbaycanda ictimai-iqti-sadi sahədə kapitalist münasibətlərin inkişafı ilə də səciyyələnir. Belə ki, XIX əsrin sonlarından etibarən Azərbaycanın iqtisadi həyatında sürətli inkişaf sənaye və kənd təsərrüfatında kapitalist ünsürlərinin genişlənməsinə şərait yaratmış, habelə Bakı-Tiflis, Bakı-Vladiqafqaz dəmir yollarının çəkilməsi Azərbaycanın iqtisadi inkişafında vacib rol oynamışdır.

Eyni zamanda, Azərbaycanın Rusiyanın tərkibinə daxil olması ilə rus mədəniyyətinin təsiri altında burada bir çox vacib elm sahələri və tədris ocaqlarının yaranması təhsilin səviyyəsinin yüksəlməsilə, bərabər ədəbiyyatın, incəsənətin inkişafına da təkan vermişdir.

Bu paraqrafda əsaslandırılmışdır ki, yeni üsullu məktəblərin açılması, məktəbin dövrünün qabaqcıl təhsil və tərbiyə müəssisəsinə çevrilməsinə şərait yaratmışdır. Valideynlərin övladlarına məktəbxanalara cəlb etmək istəyi, mütərəqqi pedaqoqların ailələrin maariflən-dirilməsinə dəstək göstərməsi dövrün ən aktual məsələlərindən hesab edilirdi. XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda üç istiqamətdə ictimai-pedaqoji hərəkat qeyd edilənlərin bariz nümunəsi idi. Bu hərəkatların fərqli istiqamətlərə yönəlmələrinə baxmayaraq əsas amal təlim-tərbiyə, ailələrdə uşaqların təhsilə cəlb edilməsi məsələlərinin mütərəqqi ideyalar əsasında aparılması, ana dilli məktəblərin inkişafı, insanlar arasında əqli inkişaf səviyyəsinin yükəldilməsi, dünyagörüşü, elm və savadın təbliğindən ibarət idi.

Burada, həmçinin əhalinin mədəni-maarif səviyyəsinin yüksəldilməsi, savadlanması yolunda atılan addımlar sırasında Azərbayca-

nın maarifpərvər ziyalıları, ictimai-siyasi xadimləri və "Nəşri-Maarif", "Nicat", "Səfa", "Səadət", "Hidayət", "Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti" və s. kimi müsəlman xeyriyyə və savad cəmiyyətlərinin dəstəyi ilə yeni tipli məktəblərin, ümumtəhsil və peşə məktəblərinin, kitabxana və qiraətxanaların açılmasının, qəzet və jurnalların nəşrinin önəmi vurğulanmış, bütün sadalanan amillərin xalqın maarifləndirilməsi sahəsindəki rolu yüksək qiymətləndirilmişdir.

"**XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda ailə və ictimai tərbiyənin səciyyəvi xüsusiyyətləri**" adlanan ikinci paraqrafda XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan ailələrinin özünəməxsus xüsusiyyətləri ilə seçildiyi, ailədaxili münasibətlərin, ailə məişəti və nikah məsələlərinin, cəmiyyətin tələblərinə uyğun olaraq, dini xurafat və cəhalətin təsiri ilə qadınların hüquqlarının tapdalanması, onlara kölə münasibətin bəslənməsinə həmin dövrün bir çox ailələrində rast gəlinən əsas problemlər olduğu vurğulanmışdır. Cəmiyyətin uzun illər bu kimi məsələlərə - ailələrdə qadınlara bəslənilən zərərli və təhqiredici adət və ənənələrin aradan qaldırılması uğrunda apardığı mübarizə göz önünə gətirilərək, qadınların ailələrdə söz sahibi olmamaqla yanaşı, ailədaxili hakimiyyətin kişilərdə olması da göstərilmişdir.

Həmçinin bu paraqrafda XIX əsrin sonu XX əsrin əvvəllərində ailədə uşaqların sosial inkişaf şəraitinin müxtəlif amillərlə şərtləndiyi və bir neçə istiqamətə bölündüyü qeyd olunmaqla, birinci tip amillərə ailə münasibətləri – ata ilə ana, valideynlərlə uşaqlar, bacı ilə qardaş və s. arasındakı münasibətlərin, ikinci tip amillər sırasına isə ailənin maddi vəziyyətinin daxil olduğu göstərilmişdir. Aparılmış tədqiqatlara əsasən həmin dövrdə Azərbaycan ailələrinin öz quruluşuna görə böyük və kiçik ailələr olmaqla iki yerə bölündüyü vurğulanaraq, böyük ailələrin əsasən kənd yerlərində, nisbətən kiçik ailələrin isə şəhərlərdə mövcud olduğu bildirilmişdir. Lakin quruluş fərqinə baxmayaraq, hər iki tip ailələrdə uşaqların ailədə tərbiyəsi məsələləri hər zaman ön planda dayandığı qeyd olunmuşdur.

Bu paraqrafda əsaslandırılmışdır ki, Azərbaycan ailələrində ümumi tərbiyənin əsas mərkəzi övladlarda valideynlərinə qarşı hörmət hissinin formalaşdırılması, böyük-kiçik münasibətlərinin doğru-

düzgün aşılanmasıdır. Ailə başçısı – ata ailəni qaydalar əsasında idarə etməyə çalışır və ailənin hər bir üzvü onu evin ağsaqqalı kimi qəbul edir, ona hörmət bəsləyirdi. Ailədə heç kəs onun qoyduğu qayda-qanunu pozmağa cəhd edə bilməzdi.

Eyni zamanda paraqrafda qeyd olunur ki, valideyn nümunəsi uşaqların tərbiyəsində çox vacib rol oynamış, bu baxımdan valideynlərin şəxsi nümünəsi uşaq tərbiyəsində ilkin yerdə dururdu. XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycan ailələrində atanın mövqeyi digər ailə üzvlərindən daha üstün idi. Uşaqların əxlaqi keyfiyyətləri – xeyirxah və ya bədxah, aqressiv və ya xoşxasiyyət olması, yalançılıq və doğruçuluğu bir çox hallarda ailə tərbiyəsinin təsirindən, valideyn nümunəsindən asılı olurdu. Ailədə mədəni ab-hava, yaşayış tərzi, adət-ənənələr və s. uşaq tərbiyəsinə bir başa təsir göstərirdi.

Ümumiyyətlə, bu paraqrafda Azərbaycan ailələrinin ümumi xarakteristikası, ailələrin tərkibi, ictimai tərbiyə məsəslələri, eyni zamanda Azəraycanın Rusiyanın tərkibində olması ilə uşaqların ilkin tərbiyəsini ailənin, cəmiyyətin və dövlətin müştərək işi hesab edərək, həm ailə tərbiyəsinin, həm də ailəyə kömək edən ictimai təşkilatların təkmilləşdirilməsinin zəruriliyi vacib hal kimi qeyd edilmişdir,

Birinci fəslin üçüncü paraqrafı "**Xeyriyyə cəmiyyətləri və ictimai-pedaqoji təşkilatların ailə tərbiyəsinə təsiri**" adlanır. Adından da göründüyü kimi bu paraqrafda məktəblərə himayədarlıq, yetimxanalar açılması, qiraətxanalar, kitabxanalar və s. təsis edilməsi istiqamətlərdə mühüm işlər görmüş "Nəşri-Maarif", "Nicat", "Səfa", "Səadət", "Hidayət", "Bakı Müsəlman Qadın Xeyriyyə Cəmiyyəti" və s. kimi müəslman xeyriyyə və savad cəmiyyətlərinin və ictimai-pedaqoji təşkilaların ailə tərbiyəsinin inkişafına töhfəsi araşdırılmış, Azərbaycanda əhalinin maddi-mənəvi rifahının yüksəldilmənəsi, onların elm və savada yiyələnməsi, maarifləndirilməsi istiqamətində ailələrə göstərdiyi yardımlar, kimsəsiz, kasıb ailələrin övladlarının təhsil alması, onların təhsilə cəlb edilməsi üçün atılmış mühüm addımlar ətraflı şəkildə təhlil edilmişdir. Qeyd olunmuşdur ki, bu cəmiyyətlər kasıb və kimsəsiz ailələrə maddi-mənəvi yardımlar göstərməklə həmin ailələrin övladlarını sosial cəmiyyətə uyğunlaşmasına, gələcək təhsilinin qeydinə qalmasına, təlim-tərbiyə müəssi-

sələrində uşaqlar arasında təbəqələşmənin aradan qaldırılması məqsədilə kasıb, yoxsul ailələrin, kimsəsiz uşaqların təhsil alaması və peşəyə yiyələnməsi üçün bir sıra məktəbdənkənar müəssisələr, bazar günü və cümə məktəbləri, axşam kursları təsis etmiş, onları ehtiyacları olan vəsaitlərlə belə pulsuz təmin etmişlər.

Bu paraqrafda əsaslandırılır ki, xeyriyyə cəmiyyətlərindən başqa Azərbaycanda fəaliyyət göstərən bir çox ictimai pedaqoji təşkilatlar, sığınacaqlar da mövcud idi. İctimai pedaqoji təşkilatlar və sığınacaqların əsas məqsədi kasıb ailələrə, valideynləri bütün günü işdə olan, nəzarətsiz, kimsəsiz, valideyn himayəsindən məhrum, valideynlərini itirmiş uşaqlara yardımlar edib, ianələr toplayıb, onların həyat şəratini yaxşılaşdırmaqdan ibarət idi.

Müxtəlif xeyriyyə və ictimai-pedaqoji təşkilatlar milliyətindən, irqindən, cinsindən asılı olmayaraq yeniyetməlik yaşına qədər, bəzən də bu yaşdan yuxarı ana-ata himayəsindən məhrum, valideynlərindən biri olan uşaqların səfalətdən, ölümdən xilas edilməsi məqsədi ilə cəmiyyətə daxil edirdilər. Eyni zamanda pis əxlaq və vərdiş sahibi olan valideynlərin övladlarını, küçə uşaqlarını da cəmiyyətə daxil edir və onların təlim-tərbiyəsi ilə məşğul olur, eyni zamanda onları əməyə, sənətə cəlb edirdilər. Məqsədə çatmaq üçün cəmiyyət üzvlərinin qarşısında mühüm vəzifələr dayanırdı ki, bu vəzifələr uşaqlar haqqında məlumatlar toplamaq, onlara sığınacaqlar, yetimxanalar, əl əməyinə, sənətkarlığa cəlb etmək, savadlılıq dərəcələrini artırmaq üçün məktəblər, kurslar təşkil etmək, səyyar kitabxanalar yaratmaq, yetim uşaqları həkim müayinəsindən keçirib lazımi dərman vasitələri ilə təmin etməkdən ibarət idi.

Eyni zamanda, bu paraqrafda Azərbaycanda yerli xeyriyyə və ictimai-pedaqoji təşkilatlardan başqa XIX əsrin sonu XX əsrin əvvəllərində Bakının qeyri-müsəlman əhalisinə məxsus xeyriyyə cəmiyyətlərinin də mövcud olduğu vurğulanaraq, yəhudi, ukrayn, gürcü, alman, polyak, osetin, latış və s. cəmiyyətlərin də fəaliyyətləri ayrı-ayrılıqda tədqiq edilmişdir. Adı çəkilən cəmiyyətlərin əsas məqsədinin Bakı və onun ətrafında yaşayan həmin millətlərə məxsus insanlara, bu millətlərin ailələrinin uşaqlarına maddi və mənəvi ehtiyaclarının ödənilməsi, maddi rifahının yüksəlməsini, onların savadlan-

ması, maarifləndirilməsi məqsədilə yardımların göstərilməsi olduğu da qeyd olunmuşdur.

Dissertasiyanın birinci fəslinin dördüncü paraqrafı **"Ailədə mənəvi keyfiyyətlərin formalaşdırılması probleminin milli mətbuatda qoyuluşu"** adlanır. Bu paraqrafda Azərbaycanın görkəmli maarifpərvərlərinin qəzet və jurnallar ətrafında birləşməsindən, onların əsas ideyalarının Azərbaycanlı balaların elmdən, təhsildən geri qalmaması, ailələrin övladlarının elmə, maarifə yönləndirilməsi, yeni dövrün ab-havasına uyğun, müasir düşüncələrlə tərbiyələnildirmələrinin əsas istiqamətlərinin doğru seçilməsindən bəhs edir.

Pedaqoji çıxışlarında və məqalələrində ailədə ata-övlad münasibətlərinə toxunan mütəfəkkirlər uşaqların tərbiyəsində ataların rolundan bəhs etmiş ataların ailədə vacib rola malik olduğunu, uşaqların təhsil-tərbiyə məsələlərində mühüm mövqe tutduğunu qeyd etmişdirlər. Onlar ailədə uşaqların gələcəyinə böyük ümid bəsləmiş, onların şəxsiyyət kimi formalaşmasında ata tərbiyəsinin müstəsna əhəmiyyətə malik olduğunu vurğulmışlar.

Dissertasiyanın ikinci fəsli **"XIX əsrin sonu-XX əsrin əvvəllərində maarifçi-pedaqoqların görüş və təcrübələrində ailə tərbiyəsinin məzmun, üsul və vasitələri"** adlanır. Fəslin "**Azərbaycan maarifçi-pedaqoqlarının nəzəri irsində ailə tərbiyəsinin məzmunu problemi**" adlı birinci paraqrafı Azərbaycanın maarifçi-pedaqoqlarının pedaqoji görüşlərində ailə, ailədə uşaq tərbiyəsi, qadına hörmət, valideyn-övlad münasibətlərinin geniş yer tutduğu qeyd olunaraq, bu yaradıcılıq nümunələrini diqqətlə təhlil edərkən milli təfəkkürün, mədəniyyətin və mütərəqqi ideyaların yayılmasında mühüm xidmətləri olan görkəmli nümayəndələrin yalnız savadın, elmin yayılması, xeyriyyəçilik məsələləri deyil, eyni zamanda ailədə tərbiyə, tərəqqi, cəhalət və mövhümatın aradan qaldırılması, ailə bağlarının və təməllərinin möhkəmləndirilməsi, habelə cəmiyyətdə ailə institutunun qüvvətlənməsi, ailələrdə şəxsiyyətin hərtərəfli inkişafı, tərbiyəsi məsələlərini qarşılarına zəruri bir məqsəd kimi qoyduqlarını və bu istiqamətdə mühüm addımlar atdıqlarını görməyin mümkün olduğu vurğulanmışdır.

Daha sonra sözügedən paraqrafda XIX əsrin sonu-XX əsrin əv-

vəllərində yaşayıb yaratmış Məhəmməd Tağı Səfərov (Sidqi), Nəcəf bəy Vəzirov, Mirzə Ələkbər Sabir, Rəşid bəy Əfəndiyev, Sultan Məcid Qənizadə, Cəlil Məmmədquluzadə, Nəriman Nərimanov, Abbas Səhhət kimi xalqımızın əsrlər boyu qoruyub saxladığı nəcib əxlaqi sifətləri, böyüklərə hörməti, kiçiklərə diqqəti başlıca ideya mənbəyi saymış və bu ideya mənbəyini ləyaqətlə daşımağı gənc nəslə tövsiyə etmiş görkəmli maarifçi-pedaqoqlarımızdan bəhs edilir. Burada həmçinin, adları çəkilən mütərəqqi ziyalılarımızın ailə tərbiyəsi ilə bağlı ərsəyə gətirdiyi hər bir əsərdə ailəyə, övlad tərbiyəsinə xüsusi yer ayrılmış, insan şəxsiyyətinin hərtərəfli formalaşmasına təsir göstərən mühüm amillərdən biri olan tərbiyəsi yüksək qiymətləndirilərək, onun uşaqların inkişafında, formalaşmasında vacib rol oynadığı, valideynlərin ailədə övlad tərbiyəsinin başlıca məqsədinin vətəninə, xalqına sevgi bəsləyən mərd, dürüst, xeyirxah mənəvi cəhətdən saf, fiziki cəhətdən sağlam, elmi dünyagörüşlü, yüksək biliklərlə silahlanmış uşaq tərbiyə etmək və yetişdirməkdən ibarətdir olduğu vurğulanmışdır.

"**Azərbaycan maarifçi-pedaqoqları ailə tərbiyəsinin üsul və vasitələri haqqında**" adlanan ikinci paraqrafda M.T.Sidqi, N.Vəzirov, M.Ə.Sabir, R.Əfəndiyev, S.M.Qənizadə, C.Məmmədquluzadə və digər pedaqoq-maarifçilərin yaradıcılığında ailə tərbiyəsinin üsul və vasitələri hərtərəfli şəkildə araşdırılmışdır.

XIX əsr sonu XX əsrin əvvəlləri Azərbaycan xalqının tarixində milli oyanış və milli dərk etmə dövrü kimi yaddaşlara həkk olunduğu, Azərbaycandakı sosial mənəvi inkişafın digər dövrlərdə olduğu kimi bu dövrdə də uşaqların ailədə tərbiyəsinin mövcud tərbiyə üsullarının varisi hesab edildiyi bildirilmişdir.

Həmçinin, tədqiq edilən dövrdə Azərbaycan ailələrində ailə mühiti, uşaqların tərbiyəsi, ailələrin sosial mənşəyi fərqli olsa da, valideynlərin övladlarına göstərdiyi sevgi bu ailələr üçün ümumi və xarakterik cəhət hesab edilirdi. Azərbaycan ailələrində həm mənəvi, həm də əxlaqi tərbiyənin mərkəzində duran əsas cəhət böyüklərə, ağsaqqallara hörmət, böyük-kiçik münasibətlərini doğru aşılamaq, düzgün tərbiyə üsullarını seçmək idi. Bu baxımdan uşaqlar öz valideynləri üçün mənəvi-əxlaqi psixoloji amil deyil, özünütəsdiq nümunəsi idilər.

Bu paraqrafda valideynlərin daim uşaqlarını hərtərəfli tərbiyə etməyə çalışaraq onların tərbiyəsində doğru üsullardan istifadə etmək istəyində olduqları, lakin həmin dövrə məxsus ictimai şərait və dini mövhumatın buna bəzən imkan yaratmadığı da vurğulanmışdı. Ümumiyyətlə, hər bir valideynin övladını tərbiyə edərkən onların şüuruna, hissinə davranışına konkret şəkildə təsir etmə yollarını axtarmalı olduğu, bu təsir üsullarının uşaqların sosial tərbiyəsinə və ailə tərbiyəsində də mühüm vasitə kimi çıxış etdiyi, bu dövrdə valideynlərin ilk növbədə tərbiyədə hörmət və tələbkarlıq prinsipini rəhbər tutaraq övladlarını bu əsasda tərbiyə etməli olduğu kimi məsələlər də bu paraqrafda öz əksini tapmışdır.

Nəticə etibarilə, XIX əsrin sonları XX əsrin əvvələrində aparılan tədqiqatlara istinadən söyləmək olar ki, ailələrdə uşaqların sosial inkişaf şəraiti onların tərbiyəsinə müxtəlif cür təsir göstərirdi. Həmin dövrdə uşaqların ailədə tərbiyə məsələləri, tətbiq edilən üsul-vasitələr yuxarıda adları çəkilən dövrün mütərəqqi pedaqoqlarının əsərlərində geniş açıqlanmışdır.

İkinci fəslin "**Azərbaycan maarifçi pedaqoqlarının ailə tərbiyəsi ilə bağlı fəaliyyətinin əsas istiqamətləri**" adlanan sonuncu – üçüncü paraqrafında XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanın mədəni-pedaqoji və maarifçilik mühitində ailə tərbiyəsinin nəzəri problemləri ilə bağlı böyük uğurlar əldə edildiyinə diqqət çəkilərək, bu sahədə dövrünün görkəmli maarifçi-pedaqoqlarından olan Mirzə Fətəli Axundov, Seyid Əzim Şirvani, Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov, Firidun bəy Köçərli, Sultan Məcid Qənizadə, Cəlil Məmmədquluzadə, Əli bəy Hüseynzadə, Ömər Faiq Nemanzadənin doğulub böyüdüyü, tərbiyə aldığı milli mühitdə ailə tərbiyəsinin təcrübi cəhətlərinin ən müsbət xüsusiyyətlərini özündə ehtiva etdiyi vurğulanmışdır.

Tərəqqipərvər ziyalılarımız, pedaqoqlarımız, əməl və fikir sahiblərimizin ailə tərbiyəsi ilə bağlı müasir həyatla səsləşən, zamanın nəbzi, gedişatı ilə uyuşan dəyərli fikirləri, irəli sürdükləri maraqlı və gərəkli mülahizələri, bu gün də öz aktuallığını itirməmiş, müasir ailələrdə uşaq tərbiyəsi məsələsinə faydalı nəzəri töhfələr vermişdir.

Həmçinin, bu paraqrafda qeyd olunan tarixi mərhələdə yaşamış

qabaqcıl ziyalılarımızın həyat və fəaliyyətini izlədikdə onların ailə tərbiyəsi ilə əlaqəli nəzəri mülahizələri, qənaətləri ilə bu sahədəki təcrübi fəaliyyətləri, əməli işləri arasında ciddi bir uyğunluğun, uzlaşmanın olduğu fikri də öz təsdiqini tapmışdır. Yəni onlar ailə tərbiyəsindəki əməli fəaliyyətlərində də müsbət bir örnəyə çevrilmişlər.

Dissertasiyanın nəticə hissəsində də qeyd olunduğu kimi, XIX əsrin sonu XX əsrin əvvəllərində yaşayıb fəaliyyət göstərən demokratik ziyalılarımızın sayı heç də az deyil. Bir dissertasiya çərçivəsində onların hamısının ailə tərbiyəsinin təcrübi tərəflərindən danışmaq imkan xaricindədir. Bunun iki mühüm səbəblə: birincisi, onların bəzilərinin ailə mühiti, ailələrindəki tərbiyəvi atmosferlə bağlı əlimizdə məlumat olmaması, ikincisi, bu dövrdə yaşayıb fəaliyyət göstərən maarifpərvərlərimizin sayının çox olduğundan onların hamısını əhatə etməyin mümkün olmaması da burada vurğulanmşdır. Bu səbəbdən də tədqiqat işinin imkan verdiyi həcmdə qabaqcıl ziyalılarımızın bir çoxunun ailə tərbiyəsinin praktiki tərəflərini işıqlandırmağa və mənzərənin ən ümumi cəhətlərini canlandırmağa təşəbbüs göstərilmişdir.

XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan ictimai gerçəkliyində yaşayıb tərbiyə alan maarifpərvərlərimizin ailə mühitinə, valideyn himayəsinə və tərbiyəsinə nəzər saldıqda bir rəngarənglik, müxtəliflik görürük. Yəni onların hər birinin tərbiyə aldığı ailədə təcrübi olaraq nə qədər ümumi cəhətlər olsa da, bir o qədər də fərqli, fərdi xüsusiyyətlər, özünəməxsus əlamətlər nəzərə çarpır. Məsələn, elə ziyalılarımız var ki, onlar ögey atanın himayəsində böyümüş, lakin həmin ögey atadan daha çox xeyirxahlıq, insani münasibət, humanist davranış, qayğı və sevgi görmüş, onun tərbiyəsi və himayədarlığı sayəsində həyatda düzgün yol seçə bilmişdir.

Sonda isə belə bir nəticəyə gəlinmişdir ki, erkən maarifçilərimizin yetişməsində ailə tərbiyəsinin mühüm rolu vardır. Tərbiyə aldıqları ailə mühiti onların mütərəqqi baxışlı, vətənə, xalqa bağlı bir ziyalı kimi yetişməsində əhəmiyyətli rol oynamışdır. Bu maarifpərvərlər özləri də bir ailə başçısı kimi öz ailələrində demokratik, müasir ideya və baxışlara söykənən bir tərbiyə sferası formalaşdırmış, tərbiyə ilə əlaqəli söylədikləri nəzəri fikirləri, qənaətləri düzgün şəkildə, praktikada öz ailə üzvlərinə tətbiq etmişlər. Nəticədə onların ailələri

milli gerçəkliyimizdə mütərəqqi ailə mühitinin, tərbiyə sisteminin gözəl praktiki nümunəsinə çevrilmişdir.

**Tədqiqat zamanı aşağıdakı nəticələr əldə edilmişdir:**

1. Müəyyən edilmişdir ki, Şimali Azərbaycanın Çar Rusiyasının tərkibinə daxil edilməsi nəticəsində mədəni-maarif və iqtisadi cəhətdən müsbət dəyişikliklərə şərait yaratmış, bu məqsəd ilə xalqın sosial-siyasi, mədəni həyatında mühüm hadisələr baş vermiş, dünyəvi məktəblər (qəza məktəbləri, şəhər məktəbləri, realnı məktəblər, gimnaziyalar) açılmışdır. Sadalanan məsələlərdən əlavə Azərbaycanda yerli və qeyri-müsəlman xeyriyyə cəmiyyətləri yaradılmış, əhalinin maarifə, elmə marağı artmış, üsuli-cədid hərəkatı genişlənmiş, milli mətbat nümunələri yaradılmış, milli ideologiya formalaşmışdır və bu hadisələrin araşdırılması mühüm elmi əhəmiyyət daşıyır.

2. Pedaqoji hərəkatın geniş vüsət almasını dövrün inqilabi məsələlərindən hesab etmək olar. Çünki Azərbaycanda yeni tipli məktəblərin açılması təlimin ana dilində aparılması ideyasının gerçəkləşməsinə, milli-mənəvi dirilik konsepsiyasının praktik istiqamətinin güclənməsinə, ana dilində dərsliklərin və oxu materiallarının nəşrinə güclü təsir göstərmişdir.

3. Maarifçi-pedaqoqların apardıqları mübarizə nəticəsində qadınların təhsil və tərbiyəsində önəmli addımlar atılmış, rusdilli məktəblərdə təhsilə cəlb edilən azərbaycanlı qızların sayı xeyli artmış, Bakıda H.Z.Tağıyev (1901), İrəvanda M.Kəngərli tərəfindən rus-tatar (Azərbaycan) qız məktəbləri açılmışdır.

4. XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan ailələri özünəməxsus xüsusiyyətləri ilə seçilmiş, ailədaxili münasibətlər cəmiyyətin diktəsinə uyğunlaşdırılmış, elm inkişaf etdikcə ailə münasibətlərinin formalaşdırılmasına mənfi təsir göstərən dini xurafat və cəhalət aradan qaldırılmış, ailədə tərbiyə problemlərinə daha çox diqqət ayrılmış, cəmiyyətin fikri bu məsələyə öz təsirini göstərmişdir.

5. XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanın maarifçi-pedaqoqlarını düşündürən ən vacib məsələlərdən biri qadınların savadsızlığı, hüquqsuzluğu, onların maarifləndirilməsi məsələləri

olmuşdur və dövrün mütərəqqi pedaqoqları da bu istiqamətdə mübarizəyə qalxmış, qadınların qadınları şəriət, mövhumat, dar düşüncələrdən xilas etmək istəmiş, qarşıya çıxan maneələrə qarşı mübarizə aparmışlar.

6. XIX əsrin sonu, XX əsrin əvvəllərində Bakıda "Bakı müsəlman xeyriyyə cəmiyyəti", "Nəşri-Maarif", "Nicat", "Səfa", "Səadət" və s. adlı xeyriyyə cəmiyyətləri əhali arasında savad və maarifin yayılmasına, kitabxana və qiraətxanaların təşkilinə, kasıb ailələrin uşaqlarının savadlanmasına, kimsəsizlərə, evsizlərə, kasıblara maddi yardımların edilməsinə və digər humanist ideyaların həyata keçirilməsinə zəmin yaratmışdır. Bundan əlavə Bakıda qeyri-müsəlmanlara məxsus xeyriyyə cəmiyyətlərinin də (yəhudi, ukrayna, gürcü, alman, polyak, osetin, latış, gürcü və s.) fəaliyyət göstərməsi "Bakı-Roma Katolik Xeyriyyə Cəmiyyəti", "Yunan Xeyriyyə Cəmiyyəti", "Bağça" Xeyriyyə Cəmiyyəti kimsəsiz, yetim, yoxsul ailələrin uşaqlarına himayədarlıq etməyin yollarını müəyyənləşdirmişlər. Bu cür cəmiyyətlərdə formalaşan ictimai-pedaqoji müəssisələrin (yasli, uşaq bağçası, cəmiyyətlər və s.) təşkilinə müsbət təsir göstərmişdir.

7. XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan ailələrində mərkəzində dayanan ən mühüm məsələlərdən biri övladların valideynlərinə hörmət hissinin formalaşdırılması, böyük-kiçik münasibətlərinin doğru-düzgün aşılanması idi. Milli mətbuatda - qəzet, eləcə də jurnallarda çap edilən elmi və pedaqoji məzmunlu ("Əkinçi", "Şərqi-Rus", "Dəbistan", "Füyüzat", "Molla Nəsrəddin" və s.) məqalələrin əksəriyyətidə dövrün mühüm məsələləri ilə yanaşı, ailə tərbiyəsi, uşaqların təlim-tərbiyəsi, xalqın mənəvi dünyasının zənginləşməsi, yetişən nəslin şəxsiyyət kimi formalaşması məsələləri yüksək dəyərləndirilmişdir. Bu məqalələr ailə tərbiyəsinin formalaşmasına, qadınların ailədə övladlarını düzgün üsullarla yetişdirməsində əhəmiyyət kəsb edən yazılardandır.

8. XIX əsrin sonu, XX əsrin əvvəllərində Avropada və Rusiyada ailə ailədaxili münasibətlərin formalaşması və ailə tərbiyəsi ilə bağlı formalaşan nəzəri fikirlər Azərbaycan maarifçilərinin ailə tərbiyəsi ilə bağlı konseptual fikirlərinin formalaşmasına güclü təsir

etmişdir. Bu da ailə tərbiyə nəzəriyyəsini zənginləşməsinə səbəb olan mühüm amillərdən sayılır.

9. Ailəni millətin, xalqın tərəqqisinin ilkin bünövrəsi hesab edən maarifçilər (H.B.Zərdabi, C.Məmmədquluzadə, Ə. Hüseynzadə, Ə.Cəfərzadə, M.Ə.Sabir, F.Köçərli, N.Nərimanov və b.) ailə dəyərlərinə böyük önəm vermiş, ailələrdə milli təfəkkürün, düşüncənin formalaşmasını vacib hesab etmiş və uşaqların dövrün tələblərinə uyğun tərbiyə edilməsini mühüm amil saymışlar.

10. Azərbaycan maarifçi-pedaqoqların nəzəri irsində ailədaxili münasibətlərin humanist yanaşmalar əsasında formalaşdırılması, böyüyən nəslin tərbiyəsində uşaqların ailədə əqli, əxlaqi, əmək, fiziki, etik-estetik tərbiyəsinin məzmunu, prinsipləri, tərbiyənin təşkili xüsusiyyətləri, həyata keçirilməsi yolları ilə bağlı bitkin nəzəri fikirlər formalaşdırmışdır. Müasir dövrün "Ailə pedaqogikası" məhz həmin nəzəri fikirlərin əsasında formalaşmışdır.

11. Azərbaycan maarifçi-pedaqoqlarının nəzəri və ədəbi-bədii irsində ailə tərbiyəsinin nöqsanlı cəhətlərini tənqid etmiş, onların aradan qaldırılması üçün yollar göstərmiş, ailə tərbiyəsinin şəxsiyyətin formalaşmasındakı rolunu inandırıcı faktlarla sübut etmiş, tərtib etdikləri dərsliklərdə və uşaqlar üçün oxu materiallarında nəzəri fikirlərini təbliğ etmişlər.

12. XIX əsrin, sonu XX əsrin əvvlərində yaşamış Azərbaycanın mütərəqqi ziyalıları, pedaqoqları öz əsərlərinidə dövrün xarakterik xüsusiyyətlərini göstərmiş, ailə tərbiyəsinin ideya inamını formalaşdırmağı, üsul və yollarını (nümunə, təlqin, rəğbətləndirmə, öyüd və nəsihət və s) aydınlaşdırmış, ailə təcrübəsində düzgün üsullardan istifadə etməyi vacib hesab etmişlər.

13. Demokratik ziyalını yetişdirən ictimai-mədəni gerçəklik, demokratik məktəb və maarif mühiti, müasir təhsillə yanaşı həm də saf, tərbiyə sistemi düzgün əsaslara söykənən, səmimiyyətə, sevgiyə, qarşılıqlı anlayışa və müasir baxışa əsaslanan ailə mühitidir. XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan ictimai mühitində ailə tərbiyəsinin praktiki gedişatının ən mühüm uğuru da bununla ölçülür.

14. XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda ailə tərbiyəsində mütərəqqi prinsiplərə əməl edilməsi nəticəsində vətənə,

xalqa, cəmiyyətə faydalı insanlar, kamil şəxsiyyətlər kimi yetişmişdir ki, bu da ailə tərbiyəsinin praktiki gedişatının ən mühüm uğuru hesab edilir. Mütərəqqi ziyalılarımızın ailə tərbiyəsinin təcrübi məsələləri, faktları, elementləri, detalları ilə bağlı fikirləri, əməlləri indiki və gələcək nəsil üçün də bir nümunədir, məktəbdir.

Tədqiqat işinin nəticəsindən qaynaqlanan ideyalarla bağlı aşağıdakı **təkliflər** irəli sürülmüşdür:

1. Müasir dövrümüzdə ailə dəyərlərinin zəifləməsi, ailədaxili münasibətlərə də mənfi təsir göstərir. Bu münasibətlərin gücləndirilməsi üçün ailədə düzgün həyat tərzinin formalaşdırılması, milli dəyərlərimizə köklənən ailələrin qurulması olduqca zəruridir. Bu səbəbdən XIX əsrin sonu, XX əsrin əvvəllərində yaşayıb-yaratmış maarifçi-pedaqoqların yaşadıqları nümunəvi ailə mühiti, ailə tərbiyəsi ilə bağlı mütərəqqi ideyalarından bəhs edən "Ailə müntəbaxatı"(pedaqoji yönlü ali məktəblərin tədris planlarına uyğun) adlı tədris vəsaitinin çap edilməsini, eyni zamanda tədrisini məqsədə uyğun hesab edə bilərik.

2. Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət komitəsinin dəstəyi ilə "Ailə ənənənləri", "Ailə uşaqların gözü ilə" adlı layihələrin təşkili əhəmiyyətli olardı.

3. Pedaqogika tarixi fənninin məzmununa ailə dəyərləri ənənə və varislik prinsipi əsasında seçmələrin müəyyənləşdirilərək daxil edilməsi yaxşı olardı.

4. XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanda ailə tərbiyəsi məsələlərinin qoyuluşu, həmin dövrdə yaşayan maarifçi-pedaqoqların, mətbuat xadimlərinin yaşadıqları ailə mühiti ilə bağlı maarifləndirici verilişlərin, radio proqramlarının təşkili əhəmiyyətli olardı.

5. Ailə dəyərlərinə həsr olunmuş ənənəvilik və müasirlik mövzusunda elmi konfransların keçirilməsi məqsədəuyğun olardı.

**Dissertasiyanın məzmunu ilə bağlı iddiaçının aşağıdakı elmi əsərləri nəşr olunmuşdur:**

1. Cəfərova S.N. "“Molla Nəsrəddin” jurnalı - ailə tərbiyəsinin istiqamətləri və üsulları haqqında" / Bakı Slavyan Universiteti. Elmi əsərlər (ictimai-siyasi elmlər seriyası). Bakı, 2019, № 1, s. 103-108.

2. Cəfərova S.N. Cəlil Məmmədquluzadənin “Anamın kitabı” əsərində ailədə tərbiyə və dil məsələləri // İlahiyyat İnstitutu, 21 fevral – Beynəlxalq Ana dili günü münasibətilə “Dilimiz – milli-mənəvi sərvətimizdir” adlı konfrans.,Bakı, 2019, s. 195-201.

3. Cəfərova S.N. Mirzə Ələkbər Sabir yaradıcılığında uşaqların ailədə təhsil və tərbiyə məsələləri // BSU, Ümummilli lider H.Əliyevin anadan olmasının 96-cı il dönümünə həsr olunmuş Azərbaycanşünaslığın aktual problemləri XI beynəlxalq konfrans. Bakı. 2019, 100-109 s.

4. Cəfərova S.N. Müasir dövrdə ailə tərbiyəsinin aktual problemləri // Azərbaycan Universiteti. “Davamlı inkişaf və humanitar elmlərin aktual problemləri”, Bakı 2019, 35-37 s.

5. Cəfərova S.N. XIX əsrin sonlarında Azərbaycan ailəsində tərbiyə problemləri / Humanitar elmlərin öyrənilməsinin aktual problemləri. Bakı: Mütərcim, 2020, № 4, 137-140 s.

6. Cəfərova S.N. Abbas Səhhət yaradıcılığında uşaqların ailədə tərbiyə məsələləri // BSU, Filoloji elmlər innovativ tədqiqatlar kontekstində - Beynəlxalq konfrans, Bakı, 2020, 119-122 s.

7. Jafarova S.N. Role of family education in the formation of a child`s personality // IV. İnternational conference on awareness 331-334 s.

. Джафарова С.Н. Нравственное воспитание детей в семье в рассказах Д.Маммедкулизаде: «Бородатй ребенок» и «Лед» // Международная научно-практическая конференция «Наука, образование, культура» посвященная 30-ой годовщине Комратского государственного университета, Молдова, 2021, 484-488 с.

Джафарова С.Н. Нравственное воспитание детей в Азербайджанских семьях в конце XIX века // V Международной научно-практической Интернет-конференции «Актуальные проблемы формирования творческой личности педагога в контекст преемственности дошкольного и начального образования», Украина, 2021 г., 102-105 с.

Cəfərova S.N. XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycanda ailə tərbiyəsinin əsas üsulları // Ümummilli lider Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş

"Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi" möv-
Kaspi Universiteti, Bakı, 2021, 86-88 s.

11. Cəfərova S.N. M.T.Sidqinin hekayələrində uşaqların ailədə tərbiyəsi məsələləri / BQU, Elmi əsərləri. 2021, 283-287 s.

12. Jafarova S.N. Problems of family upbringing in Azerbaijan at the end XIX beginning-XX century. Вісник Черкаського національного університету імені Богдана Хмельницького. Серія «Педагогічні науки». Випуск, № 4, 2021. Украіна. с. 70-76

13. Джафарова С.Н. Педагогические основы семейного воспитания // Naxçıvan Müəllimlər İnstitutu, Naxçıvan Dövlət Universiteti, Azərbaycan Respublikasının Təhsil İnstitutu, T-Network, "Müasir təhsilin inkişaf strategiyaları: uğurlar və çağırışlar" mövzusunda, Beynəlxalq elmi konfrans. NDU, 2021, 180-183.

14. Cəfərova S.N. XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan ailələrində uşaqların fiziki tərbiyəsinin bəzi məsələləri // Qədim Diyar beynəlxalq elmi jurnal, İmpakt faktor 0,542, Bakı, 2021, 239-241 s.

15. Cəfərova S.N. XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycan ailələrində uşaqların əmək tərbiyəsinin əsas istiqamətləri //Bakı Slavyan Universiteti. Elmi əsərlər (ictimai-siyasi elmlər seriyası) . Bakı, 2021, № 2, s. 66-71.

16. Cəfərova S.N. "Əkinçi" qəzetində dərc olunan məqalələrin Azərbaycanda ailə tərbiyəsinin inkişafına təsiri / Emi İş, Beynəlxalq elmi jurnal, İmpak Faktor: 1.790, Cild 16, say 1, Bakı 2022, 26-30 s.

17. Cəfərova S.N. Müasir ailələrdə uşaqlarda vətənpərvərlik hissinin aşılanmasının əsas istiqamətləri // BSU, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş Azərbaycanşünaslığın aktual problemləri XIII beynəlxalq konfrans. Bakı.2022, 422 – 426 s.

18. Cəfərova S.N. Respublikamızda ailələrə göstərilən dövlət qayğısı // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş doktorant və gənc alimlərin respublika elmi-praktik konfransı, OYU, Bakı, 4 may 2022-ci il, s.75-79.

19. Cəfərova S.N. "Dəbistan" jurnalında uşaqların ailədə təlim-

tərbiyə məsələlərinin işıqlandırılması // Naxçıvan Müəllimlər İnstitutu Naxçıvan, Elmi Əsərləri, № 1 (67), Naxçıvan, 2022, s. 24-28.

20. Jafarova S.N. Upbringing issues in Azerbaijan families (Comparative analysis end of the XIX - beginning of the XX century and the modern period) //Məktəbəqədər və ibtidai təhsil Elmi-metodik jurnal, №3/240, Bakı, 2022, s. 93-104.

21. Cəfərova S.N. Ailədə uşaqlara Azərbaycançılıq ideologiyasının aşılanması // Mingəçevir Dövlət Universiteti Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş "Heydər Əliyev dühası və müasir Azərbaycan" mövzusunda elmi-nəzəri konfrans.Mingəçevir, 5 may 2022, s.276-278.

22. Cəfərova S.N. "Firudin bəy Köçərlinin məqalələrində uşaqların ailədə tərbiyə məsələlərinin təhlilinə dair" //Ümummilli lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunmuş "Gənc tədqiqatçıların VI beynəlxalq elmi konfransı", BMU, Bakı, 2022, s. 1409-1411.

23. Cəfərova S.N. "Mirzə Ələkbər Sabirin yaradıcılığında ailədə uşaqların əxlaq tərbiyəsi məsələlərinin qoyuluşu" // "Mirzə Ələkbər Sabir: Tarixi yaddaş və müasirlik" Respublika Elmi Konfransı, ADPU və ADPU-nun Şamaxı Filialı, Bakı, 2022, 26-27 may, s.430-435

24. Cəfərova S.N. Ailədə valideynlərin pedaqoji mədəniyyəti // Qədim Diyar beynəlxalq elmi jurnal, I Respublika konfransı İmpakt faktor 0,652, Bakı, 16 dekabr, 2022, s. 58-61.

family // Международная научно-практическая конференция «Наука, образование, культура» посвященная 30-ой годовщине Комратского государственного университета.Молдова, 2022, s.

Джафарова С.Н. Методы и средства воспитания детей в современных семьях Азербайджана // ВГУ Молодежь и общество: теоретические модели и реальность (Международная научно-практическая конференция), Воронеж, 2022, s. 138-141

27. Cəfərova S.N. Ailənin psixoloji iqlimi uşaq tərbiyəsində mühüm komponent kimi // Heydər Əliyev və Türk dünyası: ictimai, iqtisadi və mədəni əlaqələr beynəlxalq elmi konfrans SDU, №3, Sumqayıt, 2023, s.58-60

28. Cəfərova S.N. Ümummilli lider Heydər Əliyevin Azərbaycan ailərinə, uşaq və yeniyetmələrinə göstərdiyi qayğı // Azərbaycanşünaslığın aktual məsələləri (tədqiqat, elmi diskurs, beynəlmiləlləşmə). Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş XIV Beynəlxalq elmi konfransın materialları (2 cilddə), I cild (I-VII bölmələr), Bakı, 2023, s. 123-125.

29. Cəfərova S.N. Heydər Əliyev fenomeni və ailə dəyərləri // "Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının Ulu Öndər irsinn daşıyıcısıdır" adlı respublika elmi-praktik konfransı. Bakı, 2023, s. 545-548.

30. Cəfərova S.N. "Cəmiyyəti xeyriyyə", "Nicat" və "Nəşri maarif" xeyriyyə cəmiyyətlərinin ailə tərbiyəsinin inkişafına töhfəsi Peşə təhsili və insan kapitalı, Cild 7, № 1,  Bakı, 2024, s. 26-32.

Dissertasiyanın müdafiəsi 6 dekabr 2024-cü il tarixdə saat 12.00-da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdindəki FD 2.15 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1000, Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 68

Dissertasiya işi ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Kitabxana-İnformasiya Mərkəzində tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Dövlət Pedaqoji Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 6 noyabr 2024-cü il tarixdə zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 04.11.2024
Kağızın formatı: 60x84 1/16
əcm: 40179